# YAXŞI İDARƏETMƏ

*Sabit Bağırov*
*Sahibkarlığın və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu*

İdarəetmə nədir?
İdarəetmə obyektləri
İdarəetmə subyektləri

# İdarəetmə ilə əlaqəlilər

Zaman

Məkan

Resurslar

Üsullar

Mühit

Müşahidəçilər

Nəticələr

# Hansı idarəetmə YAXŞI İDARƏETMƏ hesab edilə bilər?

# Yaxşı İdarəetməni təmin edən amillər:

Klasik idarəetmə nəzəriyyələrinə görə:

- optimal idarəetmə strukturu;
- düzgün seçilmiş personal;
- müasir idarəetmə texnologiyaları və vasitələr;
- daxili nəzarət;
- xarici nəzarət;
- sair.

# Şəffaflıq YAXŞI İDARƏETMƏNİN əsas şərtlərindəndir

«Yaxşı idarəetmə» termini son illər tez-tez səslənir. Hazırda Dünya Bankı, BMT-nin İnkişaf Proqramı, Asiya İnkişaf Bankı, Inter-Amerиka İnkişaf Bankı, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı və Avropa Yenidənqurma və İnkişaf Bankı kimi tanınmış beynəlxalq qurumlar Yİ-nin prinsipləri kimi aşağıdakıları qeyd edirlər:

- şəffaflıq;
- hesabatlılıq;
- iştirakçılıq;
- qanunun aliliyi;
- məsuliyyət;
- konsensusa yönəliş;
- ədalətlilik;
- səmərəlilik.

# Şəffaflığın artırılmasına yönələn beynəlxaq təşəbbüslər:

- "Transparency International" təşkilatı;
- Beynəlxalq Valyuta Fondunun «Pul-кredit və maliyyə siyasətində şəffaflığa dair Məcəllə»si;
- Beynəlxalq Valyuta Fondunun «Büdcə-vergi siyasətində şəffaflığa dair Məcəllə»si;
- BMT-nin antikorrupsiya alətləri toplusunda ictimaiyyətin məlumatlandırılnası üsulları;
- Avropa Şurası Nazirlər Komitəsinin korrupsiya ilə mübarizənin 20 prinsipi;
- "Ödədiklərini aşkarla" təşəbbüsü;
- 2003-cü ildə Evianda «Böyük Səkkizliyin» qəbul etdiyi Bəyannamə;
- Mədən Sənayesində Şəffaflıq Təşəbbüsü;
- Açıq Hökumət Tərəfdaşlığı

# Mədən sənayesində şəffaflıq çağırışları necə başladı?

1999-cu ilin dekabrında Britaniyanın Global Witness təşkilatı "Xam neft xülyalarından azad olaq" adlı hesabatını dərc etmişdir. Bu sənədin sonunda Anqolada işləyən neft şirkətlərinə belə bir çağırış var idi: "ödədiklərini açıqla".

2002-ci ilin iyununda Global Witness bir sıra digər beynəlxalq QHT-lərlə (CAFOD, Open Society Institute, Oxfam GB, Save the Children UK, Transparency International UK) ümumdünya "ödədiklərini açıqla" kampaniyasını elan etdi. Bu kampaniya təbii sərvətləri istismar edən bütün şirkətlərə yerli hökumətlərə ödədiklərini açıqlamaq çağırış idi.

# MHŞT tarixindən bəzi səhifələr

- ✓ Təşəbbüsə dair ilk çağırış 2002-ci ilin oktyabrında İohannesburqda keçirilən dayanaqlı inkişaf üzrə Dünya Sammitində Böyük Britaniyanın baş naziri Toni Bleyer tərəfindən səsləndirilmişdir;

- ✓ Təşəbbüsün dünyada tətbiqi 17 iyun 2003-cü ildə Londonda müxtəlif ölkələrdən olan 140 iştirakı ilə ilk beynəlxalq konfransdan başladı. Burada MHŞT-nün 12 təməl prinsipləri bəyan edildi. Bu 12 prinsip MHŞT-nün fəlsəfəsi adlandırıla bilər;

# Mədən Sənayesində Şəffaflıq Təşəbbüsü



EITI (Extractive Industry Transparency Initiative - Mədən Sənayesində Şəffaflıq Təşəbbüsü) 2002-ci ilin sentyabr ayında İohannesburg şəhərində keçirilmiş Davamlı İnkişaf üzrə Dünya Sammitində Böyük Britaniyanın Baş Naziri Toni Bleyr tərəfindən irəli sürülmüşdür. Məqsəd təbii ehtiyatlarından son dərəcə asılı ölkələrin mədən sənayesində ödəmələr və gəlirlər üzərində şəffaflığın artırılmasıdır.

# MHŞT tarixindən bəzi səhifələr

- ✓ 2004-cü ilin fevralında Parisdə MHŞT-nün tətbiqinə dair seminar keçirildi;
- ✓ 2004-cü ilin iyununda Si-Aylenddə (ABŞ) MHŞT 8-liyin dəstəyini qazandı;
- ✓ 2005-ci ilin martında Londonda 2-ci beynəlxalq konfrans keçirildi və Beynəlxalq Məsləhət Qrupu yaradıldı. Qrupa MHŞT rəhbərliyi strukturunun müəyyənləşdirilməsi, gələcəyə dair planların və qiymətləndirmə prinsiplərinin hazırlanması tapşırıldı. Bu konfransda eyni zamanda MHŞT-nün meyarları qəbul edildi;

# MHŞT tarixindən bəzi səhifələr

- 2006-cı ilin iyununda MHŞT ilk İdarə Heyəti təşkil olundu və Oslo şəhəri Beynəlxalq Katibliyin yerləşdiyi yer kimi seçildi. Osloda 3-cü MHŞT beynəlxalq konfransı keçirildi;
- 2007-ci ilin sentyabrında Beynəlxalq Katiblik işə başladı;
- 2008-ci ilin fevralında Akrada (Qana) Təsdiqləmə metodolojisi Beynəlxalq İdarə Heyəti tərəfindən təsdiq edildi;
- 2009-cu ilin fevralında Doxada(Qətər) 4-cü MHŞT Qlobal Konfransı keçirildi və Azərbaycan təsdiqləmə prosesini keçmiş ilk ölkə kimi tanındı
- 2011-ci ildə Parisdə MHŞT-nün 5-ci beynəlxalq konfransı keçirildi

# MHŞT prinsipləri

# MHŞT fəlsəfəsi: 12 prinsip

1. Biz əminik ki, təbii ehtiyatlardan əldə edilən maddi sərvətlərdən ağılla istifadə etmə dayanıqlı inkişafa və yoxsulluğun azaldılmasına kömək edən sabit iqtisadi inkişafın vacib hərəkətverici qüvvəsi olmalıdır. Lakin idarəetmə lazımi səviyyədə olmadıqda bu, mənfi iqtisadi və sosial sarsıntılara səbəb ola bilər.
2. Biz təsdiq edirik ki, təbii ehtiyatlardan əldə edilən maddi sərvətlərin ölkə vətəndaşlarının rifahı üçün idarə olunması müstəqil hökumətlərin səlahiyyətindədir və bu, milli inkişafın xeyrinə gerçəkləşdirilməlidir.
3. Biz etiraf edirik ki, təbii ehtiyatların hasilatından əldə edilən mənfəət bir çox illər ərzində gəlir axını kimi meydana çıxır və o, qiymətlərdən çox asılı ola bilər.

# MHŞT fəlsəfəsi: 12 prinsip

4. Biz etiraf edirik ki, hökumətin gəlir və xərclərinin ictimaiyyət tərəfindən dərk edilməsi, vaxtı gələndə, dayanıqlı inkişafın lazımi və real variantlarının müzakirəsi və müəyyənləşdirilməsində hökumətə  kömək edə bilər.
5. Biz hökumətlərin və şirkətlərin mədən sənayesində şəffaflığın vacibliyini, eləcə də ictimai maliyyənin idarə olunması və hesabatlılığın genişləndirilməsinin zəruriliyini qeyd edirik.
6. Biz etiraf edirik ki, daha çox şəfafflığa nail olma kontraktlara və qanunlara hörmətlə yanaşma kontekstində gerçəkləşməlidir.

# MHŞT fəlsəfəsi: 12 prinsip

7. Biz hesab edirik ki, daxili və xarici birbaşa investisiyalar üçün əlverişli şəraitin yaranması maliyyə şəffaflığının təmin edilməsilə mümkündür.
8. Biz hökumətin bütün vətəndaşlar qarşısında gəlir axınlarına və dövlət xərclərinə dair hesabatlılıq prinsip və praktikasının vacibliyinə inanırıq.
9. Biz ictimai həyatda, hökumətin fəaliyyətində və biznesdə yüksək şəfafflıq və hesabatlılıq standartlarının inkişafına tərəfdarıq.
10. Biz hesab edirik ki, ödənişlərin və gəlirlərin aşkarlanmasına geniş mənada ardıcıl və real, tətbiqdə isə sadə yanaşma zəruridir.

# MHŞT fəlsəfəsi: 12 prinsip

11. Biz hesab edirik ki, konkret ölkədə ödənişlər haqqında informasiyanın aşkarlanması bu ölkədə mədən sənayesində işləyən bütün şirkətlərə aid olmalıdır.
12. Biz əminik ki, məsələnin həllinə hökumətlər və hökumət idarələri, mədən sənayesində işləyən şirkətlər, ixtisaslaşdırılmış xidmət şirkətləri, çoxtərəfli təşkilatlar, maliyyə təşkilatları, investorlar və qeyri-hökumət təşkilatları də daxil olmaqla bütün maraqlı tərəflər öz əhəmiyyətli töhfəsini verə bilər.

# MHŞT-nün meyarları

# MHŞT-nün meyarları

1. Şirкətlər tərəfindən hökumətə edilən hər növ neft, qaz və digər hasilat ödəmələrinin (“ödəniş”), eləcə də hökumətin neft, qaz və hasilatla məşğul olan şirкətlərdən aldığı bütün mövcud gəlirlərin («gəlirlər») geniş ictimaiyyət üçün anlaşılan, ətraflı və aydın şəkildə müntəzəm dərc edilməsi.

2. Ölkədə audit praktikası (ödənişlərə və gəlirlərə dair) öncə tətbiq olmadığı halda ödənişlər və gəlirlər beynəlxalq auditor standartlarının tətbiqi ilə etibarlı, müstəqil auditor yoxlamasından кeçməlidir.

# MHŞT-nün meyarları

3. Etibarlı və müstəqil administrator beynəlxalq audit standartlarından istifadə edərək ödəniş və gəlirləri tutuşdurur və bu uyğunluğun (hər hansı ziddiyyət aşкar edilsə, o da daxil olmaqla) nəticələri haqqında rəyini dərc etdirir.

4. Bu qayda dövlət müəssisələri də daxil olmaqla bütün şirкətlərə şamil edilir.

# MHŞT-nün meyarları

5. Vətəndaş cəmiyyəti bu prosesin işlənib hazırlanması, monitorinqi və qiymətləndirilməsinə fəal surətdə cəlb edilir və ictimai müzakirələrin keçirilməsinə yardım edir.

6. Ehtiyatların sahibi olan ölkə hökuməti tərəfindən, zərurət olduqda beynəlxalq maliyyə institutlarının köməyi ilə, maliyyə baxımından dayanıqlı iş planı işlənib hazırlanır. Bu plan müvafiq məqsədləri (gerçəkləşməsi qiymətləndirilə bilən), icra cədvəlini və potensial maneələrin qiymətləndirilməsini əks etdirir.

# MHŞT-də ölkə statusu

# MHŞT-də iştirakçı olan ölkələrin fərqli statusu

- Namizəd ölkələr;
- Tam üzv olan ölkələr

# Azərbaycanda MHŞT-nün tətbiqinə dair ən mühüm hadisələr

# Azərbaycanda MHŞT-nün tətbiqinə dair ən mühüm hadisələr

- ✓ 17 iyun 2003-cü ildə Londonda müxtəlif ölkələrdən olan 140 iştirakı ilə ilk beynəlxalq konfransda Azərbaycan nümayəndə heyyətinin rəhbəri cənab İlham Əliyev Azərbaycanın MHŞT-nə qoşulduğunu bəyan etdi;
- ✓ 13 noyabr 2003-cü il tarixində Azərbaycan Nazirlər Kabinetinin qərarı ilə xüsusi komissiya yaradıldı;
- ✓ 13 may 2004-cü ildə bir qrup Azərbaycan QHT-ləri "Mədən Sənayesində Şəffaflığın Artırılması" Koalisiyasını yaratdılar;
- ✓ 24 noyabr 2004-cü ildə MHŞT-nün Azərbaycanda tətbiqinə dair xüsusi Anlaşma Memorandumu imzalandı;
- ✓ 2009-cu ilin fevralında Doxada(Qətər) 4-cü MHŞT Qlobal Konfransı keçirildi və Azərbaycan təsdiqləmə prosesini keçmiş ilk ölkə kimi tanındı;
- ✓ 2010-cu ildə Çoxtərəfli Qrup yaradıldı

# Açıq Dövlət

İlk rəsmi sənəd: 1993-cü il hersoq Lankasterin məruzəsi:

“Açıq dövlət – effektiv demokratiyanın tərkib hissəsidir. Dövlət qurumlarının fəaliyyəti barədə məlumatlar və təhlillər vətəndaşlar üçün əlçatan olmalıdır. Nairlər və dövlət qulluqçuları qanunları, qərarları və fəaliyyətlərini ictimaiyyətə izaqh etməlidirlər ”

# Açıq Dövlət

OECD (İƏİT), 2005:

... Açıq dövlət elə bir dövlətdir ki, burada biznes, ictimai birliklər və vətəndaşlar:

- “bilmək” – uyğun və anlaşılan məlumatları almaq;
- “əldə etmək” – xidmətlər əldə etmək və dövlətlə irtibatda olmaq;
- “yaradıcılıq” – qərarların qəbul edilməsində iştirak etmək

imkanlarına malkdirlər.

# Açıq Hökumət Tərəfdaşlığı

*sentyabr, 2011*

Meyarlar:

- fiskal şəffaflıq,
- informasiyaya azad çıxış,
- vəzifəli şəxslərin gəlirlərinin elan edilməsi
- mülki cəmiyyətin dövlətin qəbul etdiyi qərarlara cəlb olunmasıdır

# Açıq Hökumət Tərəfdaşlığı Bəyannaməsi

*Sentyabr 2011*

İnsan hüquqları haqqında Ümumdünya Bəyannamədə təsbit olunmuş prinsiplərə, korrupsiyaya qarşı BMT Konvensiyasına və insan hüquqları və yaxşı idarəetmə ilə bağlı digər müvafiq beynəlxalq sənədlərə sadiq qalan Açıq Hökumət Tərəfdaşlığı üzvləri olaraq:

*Biz təsdiq edirik ki, bütün dünyada insanlar hökumətdə daha çox aşkarlıq olmasını tələb edirlər. Onlar ictimai işlərdə daha çox vətəndaşın iştirak etməsini istəyirlər və hökuməti daha şəffaf, xeyirxah, cavabdeh və effektiv etməyin yollarını axtarırlar.*

# Açıq Hökumət Tərəfdaşlığı Bəyannaməsi

- *Biz etiraf edirik ki, ölkələr hökumətdə aşkarlığı təşkil etmək səylərinin müxtəlif mərhələlərindədirlər və hər birimiz vətəndaşlarımızın milli prioritetlərə, həyat şəraitinə və istəklərinə uyğun yanaşmalar aparırıq.*
- *Biz şəffaflığı artırmaq, korrupsiya ilə mübarizə aparmaq, vətəndaşlara səlahiyyətlər vermək, hökuməti daha effektiv və cavabdeh etmək yolunda yeni texnologiyaların gücündən yararlanmaq üçün öhdəliklərimizi gücləndirmək məqsədilə istifadə etdiyimiz vaxtın məsuliyyətini öz üzərimizə götürürük.*
- *Biz xidmətlərin yaxşılaşdırılması, ictimai resursların idarəolunması, innovasiyanın təsis edilməsi, daha təhlükəsiz cəmiyyət yaradılması yolunda vətəndaşlarla əməkdaşlığımızı yüksək qiymətləndiririk. Biz ölkələrimizdə və get-gedə daha da inkişaf edən qarşılıqlı əlaqəli dünyada böyük müvəffəqiyyət, rifah, insan ləyaqəti əldə etmək məqsədilə şəffaflıq və açıq hökumət prinsiplərini əhatə edirik.*

# Açıq Hökumət Tərəfdaşlığı Bəyannaməsi

Birlikdə, biz öhdəliklərimizi elan edirik:

- Hökumət fəaliyyəti haqqında məlumatın mövcudluğunu artırmaq.
- Vətəndaş iştirakını dəstəkləmək
- İdarəçiliyimiz ərzində professional bütövlüyün ən yüksək standartlarının tətbiq edilməsi
- Aşkarlıq və hesabat vermək məqsədilə yeni texnologiyalara girişi artırılması

# Açıq Hökumət Tərəfdaşlığı Azərbaycanın Milli Fəaliyyət Planı

*05 sentyabr 2012*

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı

*http://www.president.az/articles/5712*

DİQQƏTİNİZƏ GÖRƏ TƏŞƏKKÜR EDİRƏM